**Müstəqil, dünyəvi dövlət olan Azərbaycanın müasirləşməsi, modernləşməsi, bölgədəki mövqelərinin möhkəmlənməsi onu irəliyə, hərtərəfli inkişafa doğru aparır. Bu gün ölkədə gedən proseslər, bölgədəki mövqelərimiz, dünyada baş verənlərə təsir imkanlarımızın genişlənməsi Prezident İlham Əliyevin apardığı məqsədyönlü siyasətin nəticəsidir. Dövlət başçısının uzaqgörən siyasətinin əsas tərkib hissəsi Azərbaycanı təkcə neft ölkəsi kimi deyil, dünyada qədim tarixə, yüksək mədəniyyətə malik olan bir ölkə olaraq tanıtmasıdır. Bu istiqamətdə böyük səylər göstərən İlham Əliyev Azərbaycanın bütün dünyada elmi-texniki, iqtisadi və mədəni əlaqələrinin genişlənməsinə, dünya ölkələri ilə əməkdaşlığının möhkəmləndirilməsinə nail olmuşdur. Bu gün ölkəmiz dünyanın nüfuzlu elm və mədəniyyət mərkəzinə çevrilmiş, xalqımız bütün dünyada qədim tarixə, özünəməxsus mədəniyyətə, adət və ənənələrə malik xalq kimi tanınmış, Cənubi Qafqazda mühüm mövqeyə sahib olmuşdur.**

# Qeyri-neft sektorunun inkişafı



# dövlət siyasətinin əsas istiqamətlərindəndir

2003-cü ildən ölkəyə rəhbərlik edən Prezident İlham Əliyevin 18 illik hakimiyyət dövrü Azərbaycanın sürətli inkişaf və modernləşmə dövrüdür. Bu müddətdə ölkə başçısının düşünülmüş islahatları, müdrik qərarları Azərbaycanı dünyada öndə gedən ölkələrdən birinə çevirmiş, onun rəhbərliyi ilə həyata keçirilən konsepsiyalar, aparılan sosial-iqtisadi siyasət ölkəmizdə bütün sahələrdə önəmli dönüş yaratmışdı.

"İqtisadi inkişaf sürətinə görə Azərbaycan qabaqcıl ölkələr sırasındadır. Biz bu maddi dəyərləri, iqtisadi potensialımızı insan kapitalına çevirməliyik. Çünki insanın savadı, biliyi onun gələcək həyatını müəyyən edir, ölkənin hərtərəfli inkişafına xidmət edir və beləliklə, ölkənin intellektual potensialı da möhkəmlənir. Bu gün vaxt gəlibdir ki, biz məhz bu sahəyə sərmayə qoyaq", - deyən Prezident İlham Əliyev ölkəyə rəhbərliyinin ilk illərindən genişmiqyaslı sosial-iqtisadi dəyişikliklərin aparılmasını tələb edən təhsil islahatlarını uğurla həyata keçirməyə başlamışdı. O, elm və təhsilin problemlərini diqqət mərkəzində saxlayaraq ulu öndərin bu sahədə müəyyənləşdirdiyi prioritetlərin varisliyini təmin etmiş, ölkəmizdə bütün sahələrdə olduğu kimi, təhsil sahəsində də bir sıra islahatlar aparılmış, mühüm nailiyyətlər əldə edilmişdi. Ölkə başçısının sərəncamları əsasında təhsilin normativ - hüquqi bazası möhkəmləndirilmiş, qabaqcıl texnologiyalara əsaslanan müasir təhsil sisteminin yaradılması istiqamətində genişmiqyaslı tədbirlər həyata keçirilmişdir.

Prezident İlham Əliyevin ölkəyə rəhbər seçildiyi ilk vaxtlardan milli təhsil sistemində geniş islahatlar aparılmışdır. Belə ki, 2004-cü ildə "Azərbaycan Respublikasında ümumtəhsil məktəblərinin informasiya və kommunikasiya texnologiyaları ilə təminatı" haqqında Sərəncam imzalanmış, 2005-ci ildə "Ali təhsil müəssisələrində kredit sistemi ilə tədrisin təşkili barədə nümunəvi əsasnamə", "2005-2009-cu illər üçün ümumtəhsil məktəbləri şəbəkəsində pedaqoji kadr təminatı üzrə inkişaf proqramı" təsdiqlənmişdi. "Xüsusi qayğıya ehtiyacı olan uşaqların təhsilinin təşkili ilə əlaqədar Proqram (2005-2009-cu illər)" da xüsusi əhəmiyyətə malikdir.

Ölkə başçısının "Ümumtəhsil məktəblərinin dərsliklə təminatı proqramı (2006-2015-ci illər)", "Azərbaycan Respublikasında ümumtəhsil məktəblərinin avadanlıqlarla təmin olunmasına dair İnkişaf Proqramı (2005-2009 cu illər)", "Azərbaycan Respublikasında texniki-peşə təhsilinin inkişafı üzrə Dövlət Proqramı (2007-2012-ci illər)", "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı", "Ən yaxşı ümumtəhsil məktəbi", "Ən yaxşı müəllim" mükafatlarının təsis edilməsi və s.bu kimi fərman və sərəncamları milli təhsilimizin inkişafında mühüm rol oynamışdır.

Ölkədə həyata keçirilən inkişaf strategiyası təhsil sahəsini də özündə əks etdirir. Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 24 oktyabr tarixli Sərəncamı ilə "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın təsdiq edilməsi təhsil tariximizdə əhəmiyyətli hadisə kimi qəbul edilmişdir.

Təhsil müəssisələrinin müasir informasiya və elmi-metodiki təminatı, təhsil infrastrukturunun yenilənməsi, dərsliklə təminatın yaxşılaşdırılması, ucqar kənd məktəblərinin pedaqoji kadr təminatı, məktəbəqədər və peşə təhsili xidmətlərinin müasir tələblər səviyyəsində qurulması məqsədilə Dövlət proqramları qəbul edilmiş, layihələr həyata keçirilmişdir. Həyata keçirilən Dövlət proqramları çərçivəsində təhsil təyinatlı yeni binalar inşa edilmiş, ümumtəhsil müəssisələrinin binaları əsaslı təmir olunmuşdur. Təhsildə informasiya-kommunikasiya texnologiyalarının tətbiqi genişlənmiş, bütövlükdə təhsilin infrastrukturu müasirləşmişdir.

Azərbaycan Respublikası müstəqilliyini bərpa etdikdən sonra azərbaycanlı gənclərin dünyanın müxtəlif ali məktəblərinə göndərilməsi siyasəti yenidən formalaşmış, müxtəlif ölkələrlə əməkdaşlıq müqavilələri çərçivəsində gənclərimizin müvafiq ölkələrdə ali təhsil almağa göndərilməsinə təkan verilmişdi. "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" çərçivəsində ümumilikdə 3558 nəfər Azərbaycan gənci dünyanın 32 ölkəsinin 350-dən çox ən nüfuzlu ali təhsil müəssisəsində təhsil almaq hüququ qazanmışdır. "2007-2015-ci illərdə Azərbaycan Respublikası gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı"nın uğurlu davamı olaraq ən qabaqcıl elmi nailiyyətlərdən, innovativ təlim-tədris texnologiyalarından yararlanaraq, ölkəmizdə yeni nəsil mütəxəssislərin yetişdirilməsi, Azərbaycan ali təhsil sisteminin məzmun və keyfiyyət göstəricilərinin beynəlxalq ikili diplom proqramları ilə müasirləşdirilməsi, Azərbaycanda insan kapitalının dayanıqlı inkişafının təmin edilməsi, eləcə də Azərbaycan Respublikası vətəndaşlarına aparıcı ölkələrin ali təhsil standartları çərçivəsində keyfiyyətli təhsil almaq imkanının yaradılması məqsədilə "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı" hazırlanmışdır.

Prezident İlham Əliyev ölkəyə rəhbərlik etdiyi bu illər ərzində hər zaman təhsil işçilərinə xüsusi diqqət və qayğı ilə yanaşmışdır. Ölkə Prezidentinin imzaladıgı sərəncamla bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılan müəllimlərin həftəlik dərs yükü norması 1,5 dəfə (12-15 saat), aylıq maaşları orta hesabla 2 dəfə artırılmışdır. "Gələcəyin müəllimi təqaüdü"nün təsis edilməsi də təhsil işçilərinin əməyinin qiymətləndirilməsi, onların nüfuzunun artırılması istiqamətində atılan uğurlu addımlardan biri, Azərbaycan dövlətinin milli təhsilimizin inkişafına diqqət və qayğısının təzahürüdür. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Əhalinin sosial rifahının qorunması sahəsində əlavə tədbirlər haqqında" 2021-ci il 16 oktyabr tarixli Sərəncamı ilə təhsil işçilərinin əmək haqlarının növbəti dəfə artırılması bu qayğının bariz nümunəsidir.

Prezident İlham Əliyevin ölkəyə rəhbərliyinin ilk illərindən başlayaraq idmanın inkişafı daim dövlətin diqqət mərkəzində olmuş, ölkənin bir çox şəhərlərində olimpiya idman kompleksləri tikilib istifadəyə verilmiş, xüsusilə gənclər arasında idmanla məşğulluğun daha geniş yayılması üçün çoxsaylı tədbirlər həyata keçirilmişdir.

Bu gün Azərbaycan sözün əsl mənasında idman ölkəsinə çevrilib. İstər idman infrastrukturu, istərsə də idman yarışlarının yüksək səviyyədə təşkili ölkəmizdə idmanın inkişafında və gənc idmançı nəslinin yetişməsində böyük rol oynayır. Beynəlxalq idman oyunlarına və turnirlərə yüksək səviyyədə ev sahibliyi etməsi Azərbaycanda idmana göstərilən diqqət və qayğının göstəricisidir. 2009-cu ildə dünyanın 32 ölkəsindən 186 gimnastın iştirak etdiyi bədii gimnastika üzrə 25-ci Avropa çempionatı,120-dən çox idmançının təmsil etdiyi 25 ölkənin qatıldığı Qaydasız Döyüş üzrə Dünya Kuboku Bakıda keçirilmişdir. 2010-cu ildə Qılıncoynatma üzrə gənclər arasında keçirilən yarışa dünyanın 87 ölkəsindən 1565 idmançı, bodibildinq üzrə 64-cü dünya çempionatında isə 63 ölkənin idmançıları qatılmışdı. 2011-ci ildə ölkəmizdə cüdo üzrə "World Masters" beynəlxalq turnirində 42 ölkəni təmsil edən 300-dən çox idmançı yarışmışdı.Dünyanın 113 ölkəsindən 570 boksçunun mübarizə apardığı boks üzrə XVI Dünya Çempionatına da ölkəmiz həmin ildə ev sahibliyi etmişdi.

Tarixdə ilk dəfə keçirilən Bakı-2015 Avropa Oyunlarında Avropanın 50 ölkəsindən 10000 idmançı mübarizə aparmışdı. Avropa Oyunlarının təşkil edilməsi barədə qərar 2012-ci ildə Avropa Olimpiya Komitələrinin Romada keçirilən 41-ci Baş Assambleyasında qəbul edilmiş, Baş Assambleya iştirakçıları arasında keçirilmiş gizli səsvermə nəticəsində 48 ölkədən 38-i ilk Avropa Oyunlarının Bakıda keçirilməsi barədə qərar qəbul etmişdi. Bu baxımdan Bakı-2015 Avropa Oyunlarının Azərbaycanın idman tarixində xüsusi yeri var. İlk belə tədbirə ev sahibliyi edən Azərbaycan dünya ictimaiyyəti qarşısında öz mövqeyini daha da möhkəmləndirmiş, müstəqil və güclü bir dövlət olduğunu dünyaya bəyan etmişdi.

2015-ci ildə Şahmat üzrə Dünya Kubokuna ev sahibliyi etmiş ölkəmizdə növbəti il ilk dəfə Beynəlxalq Şahmat Federasiyası (FİDE) tərəfindən təşkil olunmuş, iştirakçılarının ümumi sayı 1587 nəfər olan 42-ci Ümumdünya Şahmat Olimpiadası keçirilmiş və Bakının ev sahibliyi etdiyi 42-ci Olimpiada indiyədək Azərbaycanda keçirilən ən kütləvi yarış kimi tarixə düşmüşdü.

2016-cı ildə Bakı dünyanın ən aparıcı avtoidman yarışı olan "Formula 1"-ə ev sahibliyi etdi. "Yarışın Azərbaycanda keçirilməsi bizim tarixi nailiyyətimizdir,bu yarış bir daha Azərbaycanın gücünü göstərdi", - deyən və Formula 1 yarışlarına böyük maraq göstərən Prezident İlham Əliyev öz çıxışlarında yarışın ölkəmizə gətirəcəyi nailiyyətlərdən danışaraq demişdir: "20 inkişaf etmiş şəhərdə keçirilən "Formula 1" üçün, Bakı 21-ci şəhər oldu. İnanırıq ki, bu yarış, Azərbaycanın turizm potensialının inkişafında xüsusi rol oynayacaq və ölkəmiz turizm mərkəzinə çevriləcəkdir. Müşahidələr göstərir ki, Bakıya gələnlərin, şəhərimizi, ölkəmizi tanıyanların sayı artır".

İslam Həmrəyliyi İdman Federasiyasının səkkizinci seçilmiş Baş Assambleyası Səudiyyə Ərəbistanının Ciddə şəhərində IV İslam Həmrəyliyi Oyunlarının 2017-ci ildə Azərbaycanda keçirilməsinə qərar vermişdi. 21 idman növü üzrə 54 dövlətin 3000-dən çox idmançısının mübarizə apardığı idman oyunlarında Bakıya rekord sayda idmançı, 2000-dək komanda rəsmisi və texniki nümayəndə gəlmişdi. 2016-cı ildə Bakıda keçirilən IV İslam Həmrəyliyi Oyunları təkcə idman yarışı deyil, eyni zamanda, bütün İslam dünyasının birlik, həmrəylik günləri kimi də yaddaşlarda qaldı.

Bu illərdə ölkəmizdə idmanın futbol növünə də xüsusi qayğı göstərilmişdi. Belə ki, Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 10 oktyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında 2005-2015-ci illərdə futbolun inkişafına dair Dövlət Proqramı"nın icrası uğurla davam etdirilmiş, həmin Dövlət Proqramında qadın futbolunun inkişafı və milli yığma komandalarının dünya və Avropa çempionatlarında iştirakının təmin edilməsi məsələlərinə xüsusi önəm verilmişdir.

İlk dəfə olaraq 2008-ci ildə 16 komandanın iştirakı ilə Yeni Zelandiyada, ikinci dəfə Trinidad və Tobaqoda keçirilmiş FIFA U-17 Qadınlararası Dünya Çempionatına, üçüncü dəfə 2012-ci ildə Azərbaycan ev sahibliyi etmiş və 17 yaşadək qızlar arasında keçirilən dünya çempionatında 16 ölkədən yaşı 17-dən aşağı olan futbolçu qızlar yarışmışdı.

17 yaşına qədər olan qadınlar arasında futbol üzrə dünya çempionatının final mərhələsinin 2012-ci ildə Azərbaycan Respublikasında keçirilməsi ölkədə idmanın bu növünə marağın daha da artmasına səbəb olmuş və Azərbaycanın nüfuzlu beynəlxalq idman tədbirlərinə ev sahibliyi etmək təcrübəsini daha da zənginləşdirmişdir.

2017-ci il sentyabrın 20-də UEFA İcraiyyə Komitəsinin 2019-cu ilin may ayında futbol üzrə UEFA Avropa Liqasının final oyununun Bakıda keçirilməsi haqqında qərar qəbul etməsi, bu final qarşılaşmasının Azərbaycana həvalə olunması regionun lider dövlətinə çevrilən Azərbaycanın sürətli inkişafı, ölkəmizin beynəlxalq aləmdə nüfuz qazanması, dünya birliyində tutduğu mövqe, mövcud ictimai-siyasi sabitliklə yanaşı, ölkəmizin yürütdüyü idman siyasətinə verilən ən yüksək qiymət idi.

Bakı daha bir dünya səviyyəli yarışa - 2021 "Formula1" yarışlarına ev sahibliyi etmişdir. Bundan əvvəl idman tarixinin ən əlamətdar yarışlarına qapılarını açmış ölkəmizdə 2 illik fasilədən sonra 5-ci dəfə "Formula 1" yarışları keçirilmişdir. Bütün bunlar gündəngünə gözəlləşən, inkişaf edən Bakımızın qonaqpərvər, bütün xalqların sülh, əmin-amanlıq şəraitində birgə yaşadığı məkan olmaqla bərabər, həm də bölgədə etibarlı tərəfdaş, güclü potensiala malik bir dövlət olmasına dəlalət edir.

Azərbaycanda səhiyyə islahatları 2004-cü ildən etibarən daha da genişlənmiş, ölkə səhiyyəsi sürətlə inkişaf etmişdir. Dövlət büdcəsindən böyük xərclər tələb edən bu sahəyə ayrılan vəsait son illər Ərzində dəfələrlə artırılmış, Bakıda və respublikamızın ayrı-ayrı bölgələrində 500-dən artıq tibb müəssisəsi tikilmiş və ya əsaslı təmir edilmiş, müasir texnika və avadanlıqlarla təchiz olunmuşdur. Eyni zamanda, özəl səhiyyə xidməti inkişaf etdirilmiş, səhiyyənin madditexniki təminatı möhkəmləndirilmişdir. Ölkə əhalisinin sağlamlığının qorunması istiqamətində atılan ən mühüm addımlardan biri isə 2008-ci ildən etibarən Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin tabeliyində olan bütün müalicə-profilaktika müəssisələrində pullu xidmətin ləğv edilməsi olmuşdur. Səhiyyə sistemində aparılan islahatların mühüm istiqamətlərindən biri də Azərbaycanda əhali arasında məcburi tibbi sığortanın tətbiq edilməsidir.

Vətəndaşlarının sağlamlığını hər zaman hər şeydən üstün tutan ölkə başçısının göstərişlərinə əsasən, səhiyyə sisteminin madditexniki bazasının möhkəmləndirilməsi, yeni tibb müəssisələrinin tikintisi, əsaslı təmiri və yenidən qurulması, onların ən müasir tibb avadanlıqları ilə təchiz edilməsi, səhiyyə islahatlarının planlı şəkildə davam etdirilməsi mütəmadi olaraq davam etdirilir. Belə ki, Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 27 dekabr tarixli Sərəncamına əsasən İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi, 2016-cı il 24 noyabr tarixli Fərmanı ilə onun əsasında "İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" publik hüquqi şəxs yaradılmışdır. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 20 dekabr tarixli Fərmanına əsasən Agentlik tərəfindən "Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi" (TƏBİB) publik hüquqi şəxsin yaradılması da aparılan genişmiqyaslı islahatların nümunəsidir.

Ümumdünya Səhiyyə Təşkilatı yeni növ koronavirus infeksiyasını hələ pandemiya elan etməzdən əvvəl Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığı ilə Azərbaycan hökuməti qabaqlayıcı tədbirlər görmüş, ölkəmizdə dərhal ciddi və təxirəsalınmaz tədbirlərin həyata keçirilməsinə başlanılmışdır. Koronavirus xəstəliyinin Azərbaycan ərazisində yarada biləcəyi təhlükənin qarşısının alınması, profilaktik və təxirəsalınmaz tədbirlərin operativ həyata keçirilməsi məqsədilə Nazirlər Kabineti yanında Operativ Qərargah, Koronavirusla Mübarizəyə Dəstək Fondu yaradılmış, Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin təşəbbüsü ilə modul tipli yeni xəstəxanaların tikintisinə başlanılmış, koronavirus testlərinin yoxlanılması üçün 42 laboratoriya tam avtomatlaşdırılmışdır.

"Peyvənd millətçiliyi", inkişaf etmiş və inkişafda olan ölkələr arasında peyvəndlərə çıxışla bağlı qeyri-bərabərlik bizi dərindən narahat etməkdə davam edir. Beynəlxalq hesabatlara əsasən, bu günə qədər dünyada mövcud olan peyvənd dozalarının 82 faizi zəngin ölkələr tərəfindən alınmış, peyvəndlərin yalnız 0,3 faizi azgəlirli ölkələrin payına düşmüşdür. Biz bir daha inkişaf etmiş ölkələri və beynəlxalq donor təşkilatlarını inkişaf etməkdə olan, xüsusilə ən az inkişaf etmiş ölkələrə zəruri maliyyə yardımı göstərməyə çağırırıq".

Prezident İlham Əliyev Qoşulmama Hərəkatının onlayn Zirvə görüşündə çıxış edərək pandemiya ilə mübarizə məqsədilə BMT Baş Assambleyasının dövlət və hökumət başçıları səviyyəsində videokonfrans vasitəsilə Xüsusi Sessiyasının keçirilməsini təklif etmişdir. Xüsusi Sessiyanın keçirilməsi təşəbbüsü 130 ölkə tərəfindən yekdilliklə dəstəklənmiş və Xüsusi Sessiya ötən il iyul ayının 10-da öz işinə başlamışdır.

Nazirlər Kabinetinin 2021-ci il 16 yanvar tarixli Sərəncamı ilə "Azərbaycan Respublikasında COVID-19 xəstəliyi əleyhinə 2021-2022-ci illər üçün Vaksinasiya Strategiyası"na uyğun olaraq yanvarın 18-dən etibarən ilk olaraq səhiyyə işçilərinin peyvəndlənməsinə başlanılmışdır.

Azərbaycan peyvəndlənmə prosesinə ən tez başlayan, koronavirusla ən effektiv mübarizə aparan ölkələrdən biri olaraq həyata keçirilən bütün tədbirlərdə birmənalı olaraq vətəndaşların gələcəyi prioritet götürülür. Eyni zamanda, ölkədə koronavirus infeksiyasına qarşı həyata keçirilən səhiyyə tədbirləri üçün Koronavirusla Mübarizəyə Dəstək Fonduna Prezident İlham Əliyevin Sərəncamı ilə Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsindən 20 milyon manat, koronavirus pandemiyasının yayılmasının qarşısının alınması və onunla mübarizənin gücləndirilməsi məqsədilə zəruri tibbi avadanlığın və digər tibbi vasitələrin tədarükü üçün Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinə 97 milyon manat ayrılması da bu gün dünyanı sarsıdan COVID-19 infeksiyası ilə mübarizədə daha effektiv nəticələrin əldə olunmasına stimul vermişdir.

Bu gün müstəqil Azərbaycanın beynəlxalq aləmdə nüfuzu və şöhrəti durmadan artır. Ölkəmiz bütün dünyada demokratik, hüquqi və dünyəvi dövlət, eyni zamanda bir çox millətlərin və konfessiyaların dinc, yanaşı yaşamasının unikal nümunəsi kimi tanınır, həm insan hüquqlarının yüksək səviyyədə qorunduğu, həm tolerantlığın həyat normasına çevrildiyi, həm də milli-mənəvi dəyərlərə böyük önəm verildiyi unikal ölkə olaraq qəbul edilir.

Prezident İlham Əliyevin xalqımızın dini dəyərlərinə, müxtəlif dinlərə və sivilizasiyalara hörmətlə yanaşması, milli-mənəvi dəyərlərə həssas münasibətin dövlət siyasətinin mühüm prioritetlərindən birinə çevrilməsi, ölkədə güclü tolerantlıq ənənələrinin getdikcə daha da möhkəmləndirilməsi Azərbaycanı dünyada multikulturalizmin əsas mərkəzinə çevirib. Son illər həm lokal, həm də qlobal əhəmiyyətli çoxsaylı sammitlərin, forumların, konfrans və seminarların ölkəmizdə təşkil olunması bunun əyani sübutudur.

Ölkə basçısı tərəfindən multikulturalizmlə bağlı həyata keçirilən tədbirlər ölkəmizə mədə-niyyətlərarası dialoq ölkəsi statusu qazandırmısdır. Azərbaycan xalqı əsrlər boyu humanist dəyərlərdən çıxış edərək ölkəmizdə yaşayan müxtəlif xalqların nümayəndələrinin dilini, dinini, mədəniyyətini tanımış, hörmət bəsləmiş, bu mədəni müxtəlifliyi hər zaman qoruyub saxlamış, onu zənginlik kimi dəyərləndirmişdir. Və bu gün nəticə olaraq bu müxtəliflik harmoniya şəklində inkişafa yönələn vəhdəti ifadə edir.

2009-cu ildə Bakının, 2018-ci ildə isə Naxçıvanın İslam mədəniyyətinin paytaxtı seçilməsi, ölkəmizdə ardıcıl olaraq mədəniyyətlərarası və dinlərarası dialoq, milli-dini tolerantlıq üzrə beynəlxalq konfransların keçirilməsi Azərbaycanda tarixi tolerantlıq ənənəsinin qorunub daha da zənginləşdirilməsini bir daha sübut edir.

Azərbaycan "dünyəvilik və diniliyin vəhdəti" konsepsiyasının reallaşdırılması nəticəsində beynəlxalq miqyasda da mədəniyyətlərarası və dinlərarası dialoq mərkəzinə çevrilmişdir. 2010-cu ildə Bakıda keçirilən, böyük tarixi əhəmiyyətə malik olan dini liderlərin ümumdünya Bakı Sammiti buna əyani sübutdur. "Qloballaşma, din, ənənəvi dəyərlər" mövzusuna həsr olunmuş dini liderlərin I Bakı Sammitində 32 ölkədən 200-dən çox nümayəndə və 14 beynəlxalq təşkilat iştirak etmişdir. Zamanın tələbi olan Bakı Sammiti qloballaşan dünyada həm dünyəvilik, həm də diniliyin tərəfdarlarını bir araya gətirərək bioetika, ekologiya, iqtisadiyyat və s. sahələrdə həyəcan təbili çalmağa məcbur etmişdi.

Dünyanın dini liderləri 2019-cu ildə ikinci dəfə bütün dünyaya Bakıdan səslənərək heç bir siyasətə qarışmadan dövlətlərarası münasibətlərdə mənəvi dəyərlərlə təmsil olunacaqlarını elan etdilər.

Planetin 5 qitəsindən 70-dən çox dövlətin, 25 ənənəvi dini məzhəbin lider və təmsilçilərinin, 10-a yaxın nüfuzlu beynəlxalq təşkilatın 500-dək nümayəndəsinin iştirak etdiyi dünya liderlərinin II Sammiti 2009-cu ildə Bakıda İƏT-ə üzv ölkələrin mədəniyyət nazirlərinin bir araya gəldiyi "Bakı Prosesi", "Multikulturalizm", "İslam Həmrəyliyi" illəri çərçivəsində təşkil olunmuş beynəlxalq tədbirlərin, dünya dini liderlərinin bir araya gəldiyi I Bakı Sammitinin davamı olaraq Azərbaycanda dinlərarası dialoqun, bəşəri dəyərlərin inkişafına hədəflənmiş siyasətin nəticəsi idi.

Bu gün bütün dünyanın böyük din xadimləri özünü artıq tolerantlığın ideoloji mərkəzi və praktik təcəssümü kimi təsdiq edən Bakıda toplaşır, dinlərin dialoqu çərçivəsində, həm də sivili-zasiyaların qarşılıqlı anlasması istiqamətində səmərəli iş aparırlar. Prezident İlham Əliyevin dediyi kimi: "Tolerantlığın məkanı, multikultural dəyərlərə sadiq olan müstəqil Azərbaycan mədəniyyətlərin dialoqunun inkişafına, mədəni müxtəlifliyin qorunub saxlanmasına və sivilizasiyalar arasındakı qarşılıqlı münasibətlərin tənzimlənməsinə yönələn mühüm layihələrin reallaşdırılması, mötəbər forumların keçirilməsi sahəsində zəngin təcrübəyə malikdir". Bu gün BMT, Avropa Parlamenti, UNESCO, Avropa Şurası və s. mötəbər beynəlxalq qurumlarda Azərbaycan dinlərarası tolerantlığın inkişafına töhfə verən ölkə kimi qəbul olunur və islam dəyərlərinin ölkəmizdə dözümlülük və tolerantlıq baxımından oynadığı müstəsna rol geniş müzakirə olunur.

Bütün sahələrdə olduğu kimi, mədəniyyət sahəsində də bu illər ərzində genişmiqyaslı islahatlar aparılmışdır. "Ölkə iqtisadi cəhətdən inkişaf edə bilər, siyasi cəhətdən də beynəlxalq mövqeləri güclü ola bilər, ancaq əgər biz xalqımızın əsas, təməl prinsiplərini diqqətdən kənarda qoysaq, onda ölkəmizin uğurlu inkişafı dayanıqlı ola bilməz", - deyən ölkə başçımız mədəniyyətin inkişafına, eləcə də xalqımızın əsrlər boyu yaratdığı mədəni irs nümunələrinin qorunması və gələcək nəsillərə çatdırılması işinə də xüsusi həssaslıqla yanaşmış, Azərbaycan xalqının tarixi irsinin qorunması və bərpası məsələlərini diqqətdə saxlamışdır. Belə ki, hakimiyyətə gəldiyi ilk vaxtlardan mədəniyyət sahəsində geniş islahatlar aparmağa başlayan dövlət başçısının ilk qərarlarından biri Azərbaycan klassiklərinin əsərlərini latın qrafikası ilə çap etdirmək olmuşdur. Ölkədə teatr binaları, muzeylər əsaslı təmir olunmuş, yeniləri tikilib istifadəyə verilmişdir. Bakıda və bölgələrdə milli-mənəvi irsimizin daşıyıcısı olan yüzlərlə məscid - Təzəpir, Bibiheybət, Əjdərbəy məscidləri, Gəncədəki İmamzadə dini-tarixi kompleks, Azərbaycanın ən qədim məscidi - 743-cü ildə tikilən Şamaxı Cümə məscidi əsaslı şəkildə bərpa edilmiş, Heydər Məscidi tikilmişdir.

Prezident İlham Əliyev tərəfindən Azərbaycanın mədəniyyət və incəsənət beşiyi sayılan Şuşa şəhərinin Azərbaycan mədəniyyətinin paytaxtı elan edilməsi isə Azərbaycanın mədəniyyət tarixinin ən möhtəşəm səhifəsidir.

Azərbaycanın inkişaf strategiyasını müəyyənləşdirən ölkə başçısı atdığı hər bir addımda, apardığı bütün islahatlarda Azərbaycanın milli maraqlarını müdafiə edir. Güclü dövlət, güclü iqtisadiyyat, xalqımızın milli ideya ətrafında birləşməsi, azərbaycançılıq fəlsəfəsi, azərbaycançılıq ideologiyası, ölkəni milli-mənəvi dəyərlər əsasında inkişaf etdirmək İlham Əliyevin apardığı məqsədyönlü siyasətin prioritet istiqamətidir.

**Mehparə ƏLİYEVA,**
**"Respublika".**